**Mübariz Məmmədhüseyn oğlu BAĞIROV i.e.d.**
Qərbi Kaspi Universiteti
"Maliyyə və mühasibat" kafedrasının müdiri
E-mail: mubariz.bagirov61@gmail.com

**Amirə Cabbar qızı İSMAYILOVA**
Azərbaycan Kooperasiya Universiteti, doktorant
E-mail: amire1986@mail.ru

# BEYNƏLXALQ MALİYYƏ-KREDİ TƏŞKİLATLARININ XARAKTERİSTİKASI

**Xülasə**

Məqalədə beynəlxalq maliyyə-kredit təşkilatlarının fəaliyyət istiqamətləri, onların funksiyaları araşdırılmışdır. Beynəlxalq inteqrasiya və qloballaşma proseslərində həmin təşkilatların rolu izah olunmuşdur. Dünya ölkələrində dinamik iqtisadi inkişafın təmin olunması üçün beynəlxalq maliyyə-kredit təşkilatlarının apardığı əməliyyatlar nəzərdən keçirilmişdir.

Aparılan araşdırmada beynəlxalq aləmdə xüsusi əhəmiyyətə malik olan Beylxəlaq Valyuta Fondunun, Dünya Bankının, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq İnkişaf Assosiasiyasının, Beynəlxalq Maliyyə Korporasiyasının, Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin xarakterik parametrləri təhlil olunmuşdur.

Beynəlxalq valyuta-kredit təşkilatlarının inkişaf etməkdə olan ölkələrlə apardığı əməliyyatlar diqqət mərkəzinə gətirilmişdir. Həmin ölkələrdə dinamik, sabit vəziyyətin təmin olunması yolları göstərilmişduir.

**Açar sözlər:** beynəlxalq kapital, beynəlxalq təşkilatlar, maliyyə-kredit əməliyyatları, dünya bankı, inteqrasiya, qloballaşma.

**JEL:** G 21
**DOİ:** 10.54414/CROI2242

## Giriş

Beynəlxalq maliyyə-kredit təşkilatları dedikdə strukturunda və kapitalında birdən çox ölkənin iştirak etdiyi və eləcə də fəaliyyətindən çoxsaylı ölkələrin yararlana bildiyi təşkilatlar başa düşülür. Belə təşkilatların bir qayda olaraq dəqiq müəyyən edilmiş fəaliyyət istiqamətləri, strateji planları və eləcə də dəqiq müəyyən edilmiş fəaliyyət çərçivələri mövcud olur. Bu tip təşkilatlar dünyanın müxtəlif regionlarından olan ölkələr arasında müxtəlif xarakterli maliyyə, iqtisadi, sosial və s. münasibətlərin bərqərar olmasını şərtləndirirlər.

Tarixi faktlar sübut edir ki, beynəlxalq maliyyə-kredit təşkilatlarının əksəriyyəti ötən əsrin ortalarından sonra yaranmış və çoxsaylı, mürəkkəb əməliyuyatları icra etməyə başlamışlar. İkinci dünya müharibəsinin təsiri altında formalaşan bloklar və eləcə də onlar arasındakı rəqabət mübarizəsi beynəlxalq əlaqələri sürətləndirmiş, beynəlxalq maliyyə kredit təşkilatlarının yaranması zərurətini meydana gətirmişdir.

Qeyd edilən zərurətdən yaranan beynəlxalq maliyyə kredit təşkilatları dünya ölkələrinin iqtisadiyyatının inkişafı, onlar arasında əlaqələrin genişlənməsi, qarşılıqlı borc problemlərinin həll edilməsi, həmçinin bu və ya digər tipli beynəlxalq əlaqələrin yaxşılaşması istiqamətində fəaliyyət göstərirlər. Bu fəaliyyəti reallaşdırmaq üçün həmin təşkilatlar müxtəlif maliyyə vasitələrindən, alətlərindən və üsullarından istifadə edirlər.

Dünya təcrübəsi göstərir ki, beynəlxalq maliyyə və kredit təşkilatlarına üzv olan ölkələr öz iqtisadiyyatlarında sürətli və dinamik inkişafa nail olur, bu əsasda inteqrasiya proseslərinin fəal iştirakçılarına çevrilə bilirlər.

**Beynəlxalq maliyyə kredit təşkilatlarının spesifik xüsusiyyətləri.**

Əsas vəzifələri beynəlxalq və regional, bir sıra hallarda isə milli xarakterli iqtisadi problemlərin həllindən ibarət olan beynəlxalq maliyyə və kredit təşkilatları dünya iqtisadiyyatının inkişafında müsbət meyllər yaradan bir strukturlar kimi

fəaliyyət göstərir və öz töhfəsini verirlər. Həmin təşkilatların fəaliyyət xüsusiyyətləri çoxsaylı amillərdən asılı olur. Məhz həmin amillərin çoxluğu hər bir maliyyə kredit təşkilatının spesifik xüsusiyyətlərini formalaşdırır.

Məhz bu araşdırmada tərəfimizdən beynəlxalq aləmdə geniş fəaliyyət spektrinə malik olan bir sıra maliyyə kredit təşkilatlarının fəaliyyət xarakteristikası araşdırılacaqdır. Məlum olduğu kimi beynəlxalq maliyyə kredit təşkilatlarının institusional strukturuna çoxsaylı ölkələr və eləcə də beynəlxalq təşkilatlar daxil olur. [1, səh 185-189]. Belə təşkilatlar spesifik xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Belə ki, onlardan bəziləri, böyük məbləğdə maliyyə resurslarına və geniş profilli səlahiyyətlərə malik olurlar. Bu və ya digər formada beynəlxalq maliyyə, eyni zamanda valyuta, eləcə də beynəlxalq kredit əməliyyatları sferasında tənzimləmə aparırlar.

Digər xarakterə və spesifik xüsusiyyətlərə malik olan başqa qrup beynəlxalq maliyyə kredit təşkilatları hökümətlərarası müzakirələr üçün forumlar təşkil edir, beynəlxalq valyuta-kredit, eləcə də maliyyə məsələləri üzrə tövsiyyələrin hazırlanması və ölkələrarası razılığın işlənib hazırlanması ilə məşğul olurlar. Digər qrup beynəlxalq maliyyə kredit təşkilatları beynəlxalq aləmdə iqtisadiyyatın inkişafı üzrə, eləcə də maliyyə və valyuta kredit məsələlərinin aktual problemləri üzrə məlumatların, statistik göstəricilərin, həmçinin elmi tədqiqat nəşrlərinin, bu məsələlərə dair ayrı-ayrı mənbədən olan məlumat və hesabatların toplanması, onların ümumiləşdirilməsi vahid bir inkişaf xəttinin müəyyən edilməsi ilə məşğul olurlar.

Bəzi beynəlxalq maliyyə kredit təşkilatları yuxarıda qeyd edilən bütün məsələlərin həll olunması ilə məşğul olurlar. Məhz həmin təşkilatların adında əks edilən beynəlxalq valyuta-kredit və maliyyə ifadəsi bu təşkilatların beynəlxalq kapital bazarında baş verən məcmu beynəlxalq iqtisadi əməliyyatlarla məşğul olmasını ifadə edir. Məhz bu təşkilatların xarakteristikası onların apardığı əməliyyatlar nəticəsində formalaşaraq, onların əsl xarakteristikasını, mahiyyətini açır. (2, səh 136).

Məlum olduğu kimi iqtisadi ədəbiyyatlarda və tədqiqatlarda beynəlxalq valyuta-kredit və maliyyə təşkilatlarını tez-tez beynəlxalq maliyyə institutları olaraq adlandırırlar. Bu xarakterə malik institutların fəaliyyətlərində oxşar və ümumi olan aşağıdakı məqsədləri izləmək olar:

- beynəlxalq aləmdə dünya iqtisadiyyatının inkişafında sabitliyi təmin etmək məqsədilə istənilən təşkilati formalardan istifadə edərək dünya birliyi qüvvələrinin səfərbər olunması;
- beynəlxalq maliyyə əməliyyatlarının sabit formada reallaşdırılmasının təmin edilməsi;
- beynəlxalq aləmdə dinamik inkişafın təmin edilməsi məqsədilə dövlətlərarası valyuta-kredit və maliyyyə əməliyyatlarının tənzimlənməsi;
- ayrı-ayrı təşkilatlarla və ölkələrlə birgə, qarşılıqlı şəkildə dünyada həyata keçirilməsi zəruri olan valyuta siyasətinin işlənib hazırlanması və onun icra olunmasının təşkili, eləcə də tənzimlənməsi;
- dünyanın bütün ölkələri üçün, onların sabit və dinamik inkişafının təmin olunması üçün birgə maliyyə-kredit siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi.

Son illərin təcrübəsi göstərir ki, müasir dövrdə beynəlxalq maliyyə və kredit təşkilatlarının dünya iqtisadiyyatının inkişafındakı rolu daha da artır. Bu vəziyyət bir sıra amillərlə əlaqədardır.

**Bu amillərdən biri** ondan ibarətdir ki, bu təşkilatlar yüksək səviyyədə səlahiyyətlərə və küllü miqdarda maliyyə vəsaitlərinə malik olmaqla dövlətlərin beynəlxalq münasibətlərə miqrasiyası prosesində ilkin, zəruri tənzimləmə imkanlarına malikdirlər. **Belə amillərdən ikincisi** ondan ibarətdir ki, həmin təşkilatlar istənilən an beynəlxalq valyuta-hesablaşma əməliyyatlarına müxtəlif vasitələrlə müdaxilə edərək bu sahədə sabitlik yarada bilirlər. **Digər bir amil** ondan ibarətdir ki, beynəlxalq maliyyə-kredit təşkilatları xüsusi, özünəməxsus funksiyaları icra edən bir təsisat olmaqla ölkələr arasında baş verən müxtəlif xarakterli və məqsədli valyuta-hesablaşma və kredit əməliyyatlarının tənzimləyicisi rolunu oynayaraq bu sahədə təhlillər aparır, inkişaf meyllərinə dair məlumatlar toplayır, dünya iqtisadiyyatının perspektiv inkişlafı üçün tövsiyyələr hazırlayırlar. [3, səh 34-37].

Hal-hazırda Beynəlxalq Valyuta Kredit təşkilatlarının fəaliyyətinə xüsusi parametr verən amillərdən biri beynəlxalq kreditdir. Bu kreditin müasir dövrdə əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, hal-hazırda ölkələr beynəlxalq kredit münasibətlərində təkcə borcalan və kreditor

rolunda çıxış etmirlər. Onlar eyni zamanda beynəlxalq kreditləşmə prosesinin təminatçısı, qarantı kimi də mühüm bir funksiyanı yerinə yetirirlər. Məhz bu funksiyanı icra edərək ölkələr öz fəaliyyətlərində krediti ixrac edir, onun sığortaçısı kimi çıxış edir. Bu prosesi icra edərək ölkələr dünya kredit bazarında rəqabətqabiliyyətli mübarizəyə qoşulurlar.

Məlum olduğu kimi beynəlxalq aləmdə ən vacib beynəlxalq maliyyə və kredit təşkilatları kimi tanınanlar aşağıdakılardır: Dünya Bankı, Dünya Bankı Qrupu, Avropa İnkişaf və Yenidənqurma Bankı.

Dünya Bankı 1944 cü ildə yaranmaqla özünün struktur xarakterinə görə çoxsaylı ölkələrin hökümətlərinə məxsusdur. Bu qurumun əsas vəzifəsi ölkələrdə iqtisadiyyatın aparıcı sahələrində dayanıqlı iqtisadi artımın təmin edilməsindən, məşğulluq səviyyəsinin yüksəldilməsi və yoxsulluq səviyyəsinin aşağı slınmasına xidmət edən yardımların göstərilməsindən, uzunmüddətli perspektivdə istehsal həcminin perspektiv olaraq artırılmasına xidmət edən layihələrin reallaşdırılmasından, ölkələrdə rəqabətqabiliyyətli inkişaf mühitinin yaradılmasından və s. ibarətdir. Birləşmiş Millətlər Təşkilatının əsas ixtisaslaşmış Maliyyə institutlarından biri olmaq etibarilə bu təşkilat, yəni Dünya Bankı ölkələr üçün çox vacib və strateji məqsəd olan üzv ölkələrin dünya təsərrüfat sisteminin əsas mərkəzləri ilə inteqrasiyasını həyata keçirir. Əslində bu fəaliyyət həm ölkələr üçün, həm də bu təşkilatın özü üçün ən vacib atributlardan biridir.

Dünya Bankı öz təşkilati strukturunda beş müxtəlif beynəlxalq maliyyə qurumunu birləşdirərək ümumi bir məqsədi yerinə yetirir. Bu məqsəd inkişaf etməkdə olan ölkələrdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsindən ibarətdir. (4, səh 132).

Beynəlxalq aləmdə geniş fəaliyyət göstərən maliyyə kredit təşkilatlarından biri də Beynəlxalq Yenidənqurma və İnkişaf Bankıdır (BYİB). Bu təşkilat 1945-ci ildən fəaliyyətə başlamışdır. Bu qurumun yaradılmasında əsas məqsəd inkişaf etməkdə olan ölkələrin nisbətən varlılarına kreditlərin verilməsindən ibarətdir. Dünya Bankının əsas struktur elementlərindən olmaq etibarilə BYİB öz gücünü və vəsaitlərini inkişaf etməkdə olan və eləcə də keçid iqtisadiyyatı yaşayan ölkələrə istiqamətləndirir.

Bu quruma üzv olmaq üçün həmin ölkə mütləq Beynəlxalq Valyuta Fondunun üzvü olmalıdır. Eyni zamanda həmin ölkə bu bankın kapitalında iştirak etməlidir. Hər bir ölkə üçün kapitalda iştirak səviyyəsi bank tərəfindən müəyyən edilir. Bir qayda olaraq BYİB həyata keçirdiyi kredit əməliyyatlarını ölkələr tərəfindən ödənilən üzvlük haqqları hesabına, cəlb olunmuş vəsaitlər hesabına və eləcə də əvvəllər borca götürülmüş kreditlərin qaytarılan hissəsinin hesabına reallaşdırır.

Təcrübə göstərir ki, BYİB öz fəaliyyətini ölkələrdə uzunmüddətli iqtisadi inkişaf problemlərinin həll edilməsi istiqamətində qurur. Bu fəaliyyət istiqamətində kreditləşmə əsasən aşağıdakı formalarda aparılır:

- inkişaf etməkdə olan, aldığı kreditlərə görə istifadə faizlərini, o cümlədən bazar dərəcələrinə yaxın olanı ödəyə bilməyən ölkələrə kreditlərin verilməsi;
- qeyd edilən kreditlərin, borcların verilməsi üçün vəsait bazasının formalaşdırılmasının Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının istiqrazlarının yerləşdirilməsi hesabına aparılması;
- kreditlərin maliyyə problemi olan ölkələrə verilməsinin müəyyən edilməsi. Belə ölkələr adətən beynəlxalq maliyyə və kredit bazarlarında kredit qabiliyyətinə malik olmurlar. Eyni zamanda bu ölkələr allınmış borclardan istifadəyə görə faiz ödəmələrini vaxtlı vaxtında ödəyə bilirlər;
- qeyd edilən ölkələrə borcların, kreditlərin verilməsini Beynəlxalq İnkişaf assosiasiyasının vəsaitləri hesabına verilməsinin təmin olunması.

Beynəlxalq İnkişaf Assossiasiyası Dünya Bankının mühüm struktur elementi olmaqla özünəməxsus xüsusiyyətli əməliyyatları icra edir. Bu təşkilat 1960-cı ildə yaradılmışdır. Fəaliyyətin ilk günlərindən bu maliyyə təsisatı daha az inkişaf etmiş ölkələrdə uzunmüddətli, 35-40 illik müddətə, ilk 10 ili güzəştli olmaqla faizsiz kreditlər verir. Bu halda yalnız inzibati xərclər üzrə ödənişləri alır.

Beynəlxalq İnkişaf Assossiasiyasının fəaliyyət missiyası bütün inkişaf etməkdə olan ölkələr üçün maraqlıdır. Lakin bu təşkilat güzəştli uzunmüddətli vəsaitləri hər ölkəyə vermir. Bu təşkilatda formalaşan meyllərə görə vəsaitlər yuxarıda qeyd olunan şərtlərlə o ölkələrə verilir ki, orada adambaşına ümumi milli gəlir 650 ABŞ dollarından yuxarı olmur. Eyni zamanda bu maliyyə təşkilatından vəsait almaq üçün ölkə

mütləq Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına üzv olmalıdır.

Beynəlxalq İnkişaf Assosiasiyasının fəaliyyətini şərtləndirən maliyyə resursları əsasən aşağıdakı mənbələrdən formalaşır:

- Təşkilata üzv olan ölkələrin üzvlük haqqlarından;
- Təşkilata üzv olan varlı ölkələrin təşkilata ödəmələrindən;
- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının gəlirlərindən köçürmələr.

Məhz bu vəsaitlər hesabına Beynəlxalq İnkişaf Assosiasiyası özünün əsas fəaliyyət istiqamətlərini, inkişaf etməkdə olan üzv ölkələrdə iqtisadi inkişafa təsirinin əmək məhsuldarlığının qaldırılmasını, əhalinin inkişaf səviyyəsinin yüksəldilməsini, reallaşdırır. Bir qayda olaraq sözügedən maliyyə təşkilatı bir nəfərə gəlirin 1305 ABŞ dollarından az olan ölkələrə borclar verir. Belə borcları verərkən bu təşkilat ölkələrdə böhran vəziyyətini, bir nəfərə düşən gəlirin səviyyəsini, ölkədə aparılan iqtisadi siyasətin istiqamətlərini, prioritetlərini və s. nəzərə alır [5, səh 82].

Dünya Bankı qrupuna daxil olan digər bir Maliyyə Kredit Təşkilatı Beynəlxalq Maliyyə Korporasiyası 1956-cı ildə yaradılmışdır. Bu təşkilatın əsas missiyası üzv ölkələrdə, özəl sektorun inkişafına dəstək verməklə əsasən inkişaf etməkdə olan ölkələrdə maliyyə-iqtisadi artıma nail olmaqdan ibarətdir. Bu təşkilat sərbəst hüquqi şəxs və maliyyə təsisatı olmaqla Dünya Bankının nəzdində fəaliyyət göstərir. Onun üzv ölkələrinin sayı 170-dən artıqdır. Bu təşkilat əsasən üzv ölkələrdə sahibkarlığa dəstək verməklə mikrosəviyyədə istehsal proseslərində yüksəliş təmin etməklə məşğul olur. Bu məqsədlə təşkilat istiqrazlar emissiya edir, xüsusi və birgə vəsaitlərdən istifadə edir, valyuta məzənnələrini və faiz dərəcələrini idarə etməklə, riskləri minimallaşdırmaqla gəlir əldə edir, milli inkişaf strategiyaları hazırlayır, maliyyə sektorunda zəruri islahatlar aparır.

Dünya Bankı qrupuna aid olan maliyyə təsisatlarından biri də İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlikdir (İTÇA). Bu təşkilat 1988-ci ildə təsis olunmuşdur. Bu təşkilat öz xarakterinə görə ixtisaslaşmış təşkilat olaraq BMT sisteminə daxildir. Onun üzv ölkələrinin sayı 130-dan artıqdır. Bu təşkilatın əsas fəaliyyət məqsədi inkişaf etməkdə olan ölkələrdə xarici investisiyaların mükafatlandırılmasıdır. Bu prosesi təşkilat xarici investisiyalara qeyri-kommersiya riskləri ilə bağlı itkilərdən qorunmaq üçün təminat verməklə həyata keçirir. Bundan başqa təşkilatın daha başqa məqsədləri də vardır. Həmin məqsədlərə aşağıdakıları aid etmək olar: bu və ya digər iqtisadi əməliyyatlar üzrə təminatların verilməsi; qeyri-kommersiya risklərinin birgə təkrar sığortası (bu kapitalın üzv ölkələrdən birində yerləşdirilməsi yolu ilə həll edilir); inkişaf etməkdə olan ölkələrdə və onları arasında investisiya axınlarının artırılması üçün müxtəlif xarakterli tədbirlərin həyata keçirilməsi və s. [6, səh 124].

Beynəlxalq aləmdə fəaliyyət göstərən, ən fəal surətdə inteqrasiya proseslərinə təsir edə bilən beynəlxalq maliyyə kredit təşkilatlarından biri də Beynəlxalq Valyuta Fondudur. Bu fondun əsas məqsədləri və fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- ölkələrarası beynəlxalq valyuta əməkdaşlığının nizama salınması;
- ölkələrarası münasibətlərdə mövcud olan valyuta kursunun sabitliyinin qorunmasına təsir etmək;
- beynəlxalq valyuta bazarında mövcud olan problemlərin həll edilməsi;
- qeyd olunan və digər məsələlər üzrə üzv ölkələrə məsləhətlərin verilməsi;
- beynəlxalq ticarət əməliyyatlarının həyata keçirilməsi üçün zəruri şəraitin yaradılması;
- ölkələrarası beynəlxalq ticarət üzrə balanslaşdırılmış artımın təmin edilməsi;
- tənzimlənən və formalaşmış valyuta münasibətlərinin qorunub saxlanması;
- valyutaların devalvasiyasına yol verilməməsi üçün üzv ölkələrdə tədbirlərin həyata keçirilməsi;
- çoxtərəfli ödəmə sistemlərinin yaradılmasına kömək göstərilməsi;
- valyuta mübadiləsinə aid məhdudiyyətlərin aradan qaldırılması;
- təşkilata üzv ölkələrə öz tədiyyə balanslarını tənzimləmək üçün müvəqqəti maliyyə vəsaitlərinin təqdim olunması;
- üzv ölkələrin beynəlxalq tədiyyə balanslarının defisiti miqyaslarının və müddətlərinin azaldılması və s. [7, səh 19.

Qeyd olunanlarla yanaşı Beynılxalq Valyuta Fondu aşağıdakı funksiyaları yerinə yetirir: xüsusi

hüquqların mənimsənilməsi üzrə ümumi hesablaşma sisteminin dəstəklənməsi; beynəlxalq valyuta sisteminin vəziyyətinə nəzarət etmək; valyutaların mübadilə kursunun sabitliyinə təsir etmək; valyuta əməliyyatları üzrə qarşılıqlı münasibətlərin tənzimlənməsi; üzv ölkələrə zərurət olduqda qısa və uzun müddətli kreditlərin verilməsi; üzv ölkələrin valyuta ehtiyatlarınını zəruri səviyyədə saxlanması eyni zamanda əməkdaşlıq üzrə məsləhətlərin verilməsi və s.

**Nəticə**

Beynəlxalq iqtisadi münasibətlərdə xüsusi əhəmiyyətə malik olan beynəlxalq maliyyə kredit təşkilatlarının fəaliyyətlərinin xarakteristikalarının və eləcə də istiqamətlərinin təhlili onu göstərir ki, bu təşkilatların fəaliyyəti çoxsaylı iqtisadi əməliyyatları əhatə edir. Həmin iqtisadi əməliyyatlar dünya iqtisadityyatının bütün istiqamətlərini özündə əks etdirməklə həmin təşkilatlara üzv ölkələrdə iqtisadi sabitliyin təmin olunmasına yönəlmişdir.

Fəaliyyətlərində ümumi, oxşar cəhətlər olmasına baxmayaraq fərqli fəaliyyət istiqamətləri də vardır. Həmin fəaliyyətlər dünya ölkələrində perspektiv, rasional inkişafı şərtləndirir. Eyni zamanda həmin fəaliyyətlər hal-hazırda dünya miqyasında mövcud olan inteqrasiya və qloballaşmanı təmin etmiş, gələcəkdə də bu proseslərin tənzimlənməsinin əsası kimi çıxış edəcək.

Beynəlxalq maliyyə kredit təşkilatları tərəfindən kapital axınlarının bu və ya digər məqsəd və istiqamətlərdə həyata keçirilməsi dünya ölkələrində iqtisadiyyatın həm makro, həm də mikro səviyyədə zəruri səviyyədə olmasına şərait yaradır. Bu isə sonda beynəlxalq miqyasda iqtisadi əməliyyatların uğurla aparılmasında əsas amilə çevrilir.

**ƏDƏBİYYAT SUYAHISI:**

1. Зиядуллаев Н.П. «СНГ в глобальной экономике: стратегия развития//Мировая экономика и международное отношения» Деньги и кредит журнал., №4, 2018 г, стр 185-189.

2. Суетин А.А. Международные валютно-кредитные отношение. Изд.Феникс. 2019, стр 411.

3. Панфиленко О.Н. «МВФ и страна третьего мира что дальше?» Коммерсант, журнал№5, 2022.

4. Устойчивое экономическое развитие в условиях глобализации экономики. Под.ред. Д.Берга, Б. Большакова, С. Гольдштейна. Изд.Экономика, 2017, 282 стр.

5. Носкова И.Я., Максилова Л.М. Международные экономические отношение. М.: Экономик-пресс. 2017, стр 282.

6. Звонова Е.А. Международное внешнее финансирование в современной экономике. Изд.Экономика, 2020, стр 324.

7. INTERNATIONAL MONETARY FUND/ Effect of Financial Globalization on Developing Counters: Some Empirical Evidence Eswar Prasad, Kennet Rogoff, Shang Tin Wei and M/Ayhan Kose March 17, 2018, 73 pages.

**Мубариз Мамедхусейн оглы БАГИРОВ** д.э.н.
Западно-Каспийский Университет
Заведующий кафедрой "Финансы и бухгалтерский учет",
E-mail: mubariz.bagirov61@gmail.com

**Амира Джаббар гызы ИСМАИЛОВА**
Азербайджанский Университет Кооперации, докторант
E-mail: amire1986@mail.ru

# ХАРАКТЕРИСТИКА МЕЖДУНАРОДНЫХ ФИНАНСОВО-КРЕДИТНЫХ ОРГАНИЗАЦИЙ

**Резюме**

В статье рассмотрены направления деятельности международных финансово-кредитных организаций, и их функции. Объяснена роль этих организаций в процессах международной интеграции и глобализации. Рассмотрены операции, проводимые международными финансово-

кредитными организациями для обеспечения динамичного экономического развития в странах мира.

В проведенном исследовании были проанализированы характерные параметры Международного Валютного Фонда, Всемирного Банка, Международного Банка Реконструкции и Развития, Международной Ассоциации Развития, Международной Финансовой Корпорации, Гарантийного Агентства по многосторонним инвестициям, имеющие особое значение на международной арене.

В центре внимания оказались операции международных валютно-кредитных организаций с развивающимися странами. В этих странах были намечены пути обеспечения динамичного, стабильного состояния.

**Ключевые слова:** международный капитал, международные организации, финансово-кредитные операции, всемирный банк, интеграция, глобализация

**Mubariz Mammadhuseyn BAGİROV Doctor of Economics**
Western Caspian University
Head of the Department of Finance and Accounting,
E-mail: mubariz.bagirov61@gmail.com

**Amira Jabbar ISMAİLOVA**
Azerbaijan University of Cooperation,
doctoral student
E-mail: amire1986@mail.ru

## CHARACTERİSTİCS OF İNTERNATİONAL FİNANCİAL AND CREDİT ORGANİZATİONS

### Resume

The article outlines the operations and functions of international financial and credit institutions. The function of these organizations in international integration and globalization processes is explained. International financial and credit institutions' efforts to ensure dynamic economic development in countries throughout the world are taken into account.

The study looked at the characteristics of the International Monetary Fund, the World Bank, the International Bank for Reconstruction and Development, the International Development Association, the International Finance Corporation, and the Multilateral Investment Guarantee Agency, all of which play a significant role in the international arena.

The emphasis was on international monetary and credit organizations' operations with developing countries. Methods for ensuring a dynamic, stable state were outlined in these countries.

**Keywords:** international capital, international organizations, financial and credit operations, world bank, integration, globalization

**Daxil olub:** 02.04.2023